**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

№ 54 "20" Aprel 2020-ci il

**Ramiz Aboyev adına Mədəniyyət və istirahət parkının yenidən təşkil edilməsi haqqında**

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin 06 fevral 2020-ci il tarixli 03 nömrəli Qərarına və "Yerli İcra Hakimiyyətləri Haqqında" əsasnamənin 4.1.8 və 6.8-ci bəndlərinə əsaslanaraq **qərara alıram:**

1.Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin 06 fevral 2020-ci il tarixli 03 nömrəli qərarının 1-ci bəndinə əsasən Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 18.12.2000-ci il tarixində D-449 nömrəsi ilə dövlət qeydiyyatına alınmış R.Aboyev adına Mədəniyyət və istirahət parkının təşkilati-hüquqi forması dəyişdirilərək Azərbaycan Respulikasının Mülki Məcəlləsi və digər normativ aktlarına uyğun olaraq yenidən təşkil edilməklə "R.Aboyev adına Mədəniyyət və istirahət parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti hüquqi statuslu cəmiyyətinə çevrilsin.

2. Gərayzadə Ayaz Tofiq oğlu "R.Aboyev adına Mədəniyyət və istirahət parkı" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru vəzifəsinə təyin edilsin.

3. RİH başçısının 10 sentyabr 2019-cu il tarixli 175 nömrəli sərəncamın 2-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

4.Sərəncamın icrasına nəzarət RİH başçısının müavini Aygün Əliyevaya tapşırılsın.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**Sabir Əliyev**

CS CamScanner